**Zəngəzur dəhlizi Azərbaycanın strateji məqsədlərindən biri kimi ölkənin daxili nəqliyyat əlaqələrinin bərpası və beynəlxalq ticarət sistemlərinə inteqrasiyası baxımından əhəmiyyət daşıyır. Prezident İlham Əliyev Kəlbəcər rayon ictimaiyyəti ilə görüşdə çıxışı zamanı bu məsələni xüsusi vurğulayıb.**

Dövlətimizin başçısı bildirib ki, Ermənistanla sülh müqaviləsinin müəllifi də Azərbaycandır və sənəddəki bütün bəndlər ölkəmizin mövqeyi əsasında formalaşıb. Prezidentin sözlərinə görə, bu sənədin paraflanması Ermənistan–Azərbaycan qarşıdurmasına faktiki olaraq son qoyur və regionda yeni mərhələ başlayır.

Bu, Azərbaycanın qlobal iqtisadi sistemlərinə daha dərin inteqrasiyası üçün əsas açardır. Uzunmüddətli perspektivdə isə ölkənin iqtisadi inkişafına, ixrac potensialının genişlənməsinə və xarici sərmayələrin cəlb olunmasına birbaşa təsir göstərəcək.

Azərbaycan dəhlizin inşası üçün artıq konkret və məqsədyönlü praktiki addımlar atıb. Bu çərçivədə əsas layihələrdən

# Tarixi layihə, strateji dönüş

## *Azərbaycanın logistik hədəfi və regional geoiqtisadi zirvəyə aparan yol*

Azərbaycanın tarixi diyarı olan Naxçıvanla quru bağlantı məsələsi də bu çərçivədə öz həllini tapır. Dövlət başçısının qeyd etdiyi kimi, yaxın bir neçə il ərzində Azərbaycanın əsas hissəsindən Naxçıvana həm qatarla, həm də avtomobillə hərəkət mümkün olacaq. Hazırda Naxçıvana əsas yük daşımaları İran üzərindən həyata keçirilir. Bu isə həm maliyyə baxımından biri Horadizdən Aqbəndədək uzanan 110 kilometrlik yeni dəmir yolu xəttidir. Azərbaycan Dövlət Dəmir Yolları və müvafiq podratçı şirkətlər tərəfindən həyata keçirilən tikinti işləri mərhələli şəkildə aparılır. Yolun bərpası zamanı rels-şpal qəfəslərinin montajı həyata keçirilir. Bu işlər zamanı gündə minimum 500–600 metr, maksimum isə 1 kilometr rels döşənir. Əgər ciddi tex-




əlavə xərclərə səbəb olur, həm də regiondakı siyasi dəyişikliklərdən asılılığı artırır. Bu səbəbdən Zəngəzur dəhlizinin açılması Azərbaycanın daxili inteqrasiyasını möhkəmləndirəcək və ölkənin ərazi bütövlüyünün praktik təminatı baxımından strateji rol oynayacaq.

Bu marşrut, eyni zamanda, Azərbaycanın beynəlxalq nəqliyyat şəbəkələrinə qoşulması baxımından yeni imkanlar yaradır. Çin və Avropa arasında yüklərin daşınmasında zaman və məsrəf baxımından ən qısa quru-dəniz marşrutlarından biri olan Orta Dəhliz əhəmiyyətli dərəcədə aktuallaşıb. Bu marşrut üzrə daşımaların bir hissəsi Bakı–Tbilisi–Qars dəmir yolu ilə həyata keçirilir. Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə infrastruktur şəbəkəsi daha da gücləndəcək və Azərbaycan yeni bir tranzit arteriyasına sahib olacaq.

Hazırda Orta Dəhliz üzrə yüklərin Asiyadan Avropaya çatdırılma müddəti təxminən 12–15 gün arasında dəyişir. Bu isə dəniz yolu ilə müqayisədə 2 dəfə sürətlidir. Azərbaycan bu kontekstdə nəinki tranzit ölkəyə çevrilir, həm də regional logistik mərkəz statusunu gücləndirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı (Ələt limanı), Bakı–Tbilisi–Qars dəmir yolu, Xəzər üzərindən yük daşıyan bərə marşrutları və genişlənən dəmir yolu infrastrukturunu nəzərə alsaq, Zəngəzur dəhlizi bu mövcud logistik sistemin tamamlayıcı və gücləndirici halqası olacaq. Bu isə ölkəyə həm tranzit rüsumlarından gəlir, həm də xidmət sektoru (logistika, gömrük, sığorta və s.) vasitəsilə əlavə iqtisadi dəyər qazandıracaq.

Dəhliz, həmçinin Azərbaycanın beynəlxalq nəqliyyat layihələrində oynadığı rolu daha da möhkəmləndirəcək. Azərbaycanın iştirakı ilə həyata keçirilən TRACECA, Lapis–Lazuli marşrutu və Şimal–Cənub dəhlizi kimi təşəbbüslərlə inteqrasiya onun funksional dəyərini artıracaq və ölkənin çoxşaxəli logistika qovşağına çevrilməsi prosesini sürətləndirəcək.

Onu da qeyd edək ki, hazırda Əfqanıstan–Türkmənistan–Azərbaycan–Gürcüstan–Türkiyənin iştirak etdiyi Lazurit dəhlizi (Lapis–Lazuli) vasitəsilə yükdaşımalar həyata keçirilir. Əfqanıstandan çıxan yük Azərbaycandan keçməklə Avropaya çatdırılır. Bu isə layihə üzv ölkələrə regional və kontinental ticarət bazarlarına çıxışları şaxələndirmək imkanı verir. Bu da öz növbəsində həm bu dəhliz vasitəsilə yük daşıyan ölkələrin, həm də ərazisindən malların tranziti üçün istifadə olunacaq dövlətlərin iqtisadi inkişafına səbəb olur.

Beləliklə, Zəngəzur dəhlizi yalnız bir regionun içində nəqliyyat bağlantısı deyil, eyni zamanda, Asiya ilə Avropa arasında yerləşən, strateji mövqeyə malik Azərbaycanın qlobal ticarət və nəqliyyat sistem-niki maneələr ortaya çıxmasa, dəhlizin əsas hissəsini təxminən 6 ay müddətində bərpa etmək mümkündür. Dəmir yolu Zəngilan və Qubadlı rayonlarının ərazisindən keçməklə Ermənistan sərhədinə qədər uzanır və dəhlizin Azərbaycan hissəsinin əsas infrastruktur dayağını təşkil edir. Yol həm sərnişin, həm də yük daşımaları üçün nəzərdə tutulub və onun istifadəyə verilməsi ilə təkcə Naxçıvanla birbaşa dəmir yolu əlaqəsi deyil, həm də regionda logistik dövriyyənin artırılması mümkün olacaq. Yolun tam olaraq gələn ilin sonunadək istifadəyə verilməsi planlaşdırılır.

Horadiz–Ağbənd avtomobil yolunun tikintisi isə 95 faiz səviyyəsində tamamlanıb. Bildirilir ki, həmçinin Naxçıvanda da dəmir yolu tam müasirləşdiriləcək. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Bu barədə danışan Azərbaycan Prezidenti Ermənistanın bu öhdəliyi üzərinə götürdüyünü və bunun bizim növbəti tarixi uğurumuz olduğunu qeyd edib.

Zəngəzur dəhlizi, sadəcə, nəqliyyat marşrutu kimi deyil, həm də sosial-iqtisadi canlanma baxımından əhəmiyyət kəsb edir. Yolun keçdiyi ərazilər, xüsusilə Zəngilan, Qubadlı və digər azad edilmiş rayonlar uzun illər işğal altında qaldığından infrastruktursuz və inkişafsız vəziyyətdə idi. Yeni dəmir yolu bu ərazilərdə yaşayışın bərpasına, iqtisadi aktivliyin artmasına, kənd təsərrüfatı və sənaye obyektlərinin yenidən qurulmasına, eləcə də yerli əhalinin məskunlaşdırılması prosesinə təkan verəcək. Bundan əlavə, bu layihə Azərbaycanın işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi üçün həyata keçirdiyi "Böyük Qayıdış" proqramının mühüm komponentlərindən biridir. İnfrastrukturun qurulması həm bərpa prosesini sürətləndirir, həm də xarici sərmayəçilər üçün bu bölgələri daha cəlbedici edir.

Ümumiyyətlə, dəmir yolu təkcə iqtisadi layihə deyil, həm də siyasi simvol, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpasının konkret infrastruktur ifadəsidir. Dəhlizin geosiyasi əhəmiyyəti təkcə Azərbaycanla məhdudlaşmır. Bu dəhlizə Türkiyə, Rusiya, Çin, Avropa İttifaqı və digər beynəlxalq aktorların artan marağı onun artıq regional çərçivəni aşaraq qlobal əhəmiyyətə malik olduğunu göstərir.

Beləliklə, Zəngəzur dəhlizi gələcəyin nəqliyyat arteriyası olmaqla yanaşı, həm də Cənubi Qafqazın yeni geosiyasi arxitekturasının formalaşmasında açar rola malikdir. O, ölkəmizin iqtisadi suverenliyini, ərazi bütövlüyünün və beynəlxalq nüfuzunun daha da möhkəmlənməsinə xidmət edəcək.

**Ə.PÜNHAN**
**XQ**

Xalq qəzeti.- 2025.- 23 avqust (№ 177).- S.10.